# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# XƏZƏR UNİVERSİTETİ

## TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİ
## HƏYAT ELMLƏRİ DEPARTAMENTİ

BAYTARLIQ İŞİNİN TƏŞKİLİ
SİLLABUS

Tədris ili və semestri
2024/2025 Payız

**Müəllim: Rafael Məmmədov**

**Razılaşdırılmışdır** **Təsdiq edirəm**

**Departament müdiri:**
**b.ü.f.d. C.M. Eldarova**

| | | |
|---|---|---|
| **Ümumiməlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | VET 569 Baytarlıq işinin təşkili, 4 AKTS |
| | **Departament** | Həyat Elmləri departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2024/25-ci tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim** | Məmmədov Rafail Əhməd oğlu |
| | **E-mail:** | rafail.mammadov@khazar.org |
| | **Telefon:** | Ev : 465 58 42, mobil: 070 640 44 00 |
| | **Mühazirə otağı/Cədvəl** | Elşən Mehdiyev küç. (Bakıxanov kampusu) |
| | **Məsləhət saatları** | |
| **Prerekvizitlər** | Yoxdur | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü** | Məcburi | |
| **Əsas (dərsliklər) və əlavə ədəbiyyat** | **1.** “Baytarlıq” haqqında Azərbaycan Respublikasının qanunu. *(Qanun Azərbaycan Respublikası Prezidenti tərəfindən 2005-ci il 31 may tarixində təsdiq edilmiş və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanı ilə bu qanunun tətbiqinə başlanılmışdır).* https://files.preslib.az.<br>**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.09.2006 –ci il tarixli 209 saylı qərarı. https://nk.gov.az/senedler/qerarlar<br>**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.01.2007-ci il tarixli 11 saylı qərarı. https://nk.gov.az/senedler/qerarlar<br>**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.01.2007-ci il tarixli 19 saylı qərarı . https://nk.gov.az/senedler/qerarlar<br>**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16.04.2007-ci il tarixli 66 saylı qərarı. Bu sənəd NK-nin 18.04. 2023-cü il 18 tarixli 120 nömrəli Qərarı ilə yeni redaksiyada verilmişdir. https://nk.gov.az/senedler/qerarlar<br>**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22.05.2007-ci il 80 saylı qərarı ilə təsdiq edilmişdir. https://nk.gov.az/senedler/qerarlar<br>**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.10.2007-ci il 156 saylı qərarı . https://nk.gov.az/senedler/qerarlar<br>**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 66 nömrəli qərarı ilə təsdiq edilmişdir. https://nk.gov.az/senedler/qerarlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 9 mart tarixli 38 nömrəli qərarı .https://nk.gov.az/senedler/qerarlar<br>**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22.06.2021-ci il 178 saylı qərarı. https://nk.gov.az/senedler/qerarlar<br>**10.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə**.** *(Azərbaycan Respublikası Prezidentinin 2019-ci il 21 noyabr tarixli 701 nömrəli Fərmanı ilə təsdiq edilmişdir).* https://www. axa.gov.az<br>**11.** И. Н. Никитин, Организация и экономика ветеринарного дела: учебник / Санкт-Петербург: Лань, 2022. – 368 с. | |
| **Kursun məqsədi və vəzifələri** | Baytarlıq işinin təşkili fənninin öyrənilməsinin məqsədi Azərbaycan Respublikasının baytarlıq qanunvericiliyi və baytarlıq xidmətinin təşkilati strukturu, baytarlıq tədbir-lərinin planlaşdırılması, təşkili və iqtisadiyyatı, baytarlıq uçotu, hesabatı və kargüzarlığı, həmçinin baytarlıq işinin təşkilinin kommersiya formaları barədə tələbələrə zəruri məlumatlarının verilməsindən ibarətdir. | |

| | |
|---|---|
| | Bu fənn tələbəyə baytarlıq təbabəti, təşkilati-idarəetmə, istehsalat-texnoloji, baytarlıq nəzarəti, lahiyə-konsultativ, elmi-tədqiqat və digər fəaliyyətlərin həyata keçilməsini öyrədir.<br>Fənnin əsas vəzifələri aşağıdakılardan ibarətdir:<br>- Baytarlıq məsələri üzrə qanunvericiliyi öyrənmək;<br>- Müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada baytarlıq hesabat və uçot formaları ilə tanış olmaq;<br>- Heyvanların xəstəliklərinin qəbul edilmiş meyarlarını və təsnitatını, xəstəliklərin müvafiq baytarlıq qanunvericiliyi ilə müəyyən edilmiş siyahısını (nozoloji cədvəli) öyrənmək;<br>- Baytarlıq uçotunun tələblərinə uyğun olaraq xəstə heyvanların qeydiyyatı jurnalının və heyvanın xəstəlik tarixinin formaları və doldurulma qaydaları ilə tanış olmaq;<br>- Baytarlıq tədbirlərinin planlaşdırılması zamanı məlumatların toplanması və təhlili metodları ilə , həmçinin baytarlıq – sanitariya təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin növləri və onların keçirilməsinə tələblərin baytarlıq qanunvericiliyinə uyğun olması ilə tanış olmaq;<br>- Aparılan baytarlıq müalicə işinin və baytarlıq-profilaktiki tədbirlərin səmərəliliyinin qiymətləndirilməsini və onların keçirilməsi üsullarını öyrənmək;<br>- Baytarlıq təbabətinə və xəstəliklərin profilaktikasına dair bilikləri təsərrüfat işçiləri arasında təbliğ etmək;<br>- Xəstlliklərin profilaktikası üzrə tədbirlərin səmərəliliyini təhlil etmək və əldə edilən nəticələrin onların təkmilləşdirilməsi üçün istifadə etmək. |
| **Kursun məzmunu** | Respublikada baytarlıq sahəsi üzrə qəbul edilmiş normativ sənədlər (Azərbaycan Respublikasının Qanunları, Nazirlər Kabinetinin qərarları, beynəlxalq və milli standartlar, əmrlər, əsasnamələr, təlimatlar, qaydalar, göstərişlər, tövsiyələr, terminologiya, qüvvədə olan beynəlxalq təsnifatlar və s.). Baytarlıq fəaliyyətinin obyektləri, dövlət və özəl baytarlıq xidmətləri. Baytarlıq və istehsalat bölmələrinin perspektiv planlaşdırılması metodları. Baytarlıq tədbirlərinin cari planlaşdırılması, təşkili və iqtisadiyyatı. Heyvanların infeksion xəstəlikləri (o cümlədən zoonozlar) zamanı kütləvi diaqnostik və müalicə-profilaktiki tədbirlərin təşkili. Baytarlıq xidmətinin inkişafının qiymətləndirilməsi və proqnozlaşdırılması. Heyvanların müxtəlif xəstəlikləri zamanı aparılan epizootiya əleyhinə və müalicə-profilaktiki tədbirlərin effektivliyinin qiymətləndirilməsi. Əhaliyə baytarlıq yardımının göstərən müxtəlif tipli və müxtəlif mülkiyyət formalarına malik olan müalicə-profilaktiki müəssisələrinin təşkilatı strukturu, onların idarəetmə və iqtisadi fəaliyyətləri. Baytarlıq nəzarətinin təşkili. Baytarlıq xidmətinin beynəlxalq əlaqələri. Müalicə-profilaktiki müəssisələrin işçi heyətinin iş fəaliyyətinin rasional təşkili. Baytarlıq uçotu, hesabatı və kərgüzarlığı. |
| **Tədrisin (öyrənmə) nəticələri** | **Baytarlıq işinin təşkili kursunun öyrənilməsi nəticəsində tələbə aşağıdakıları biləcəkdir:**<br>- Azərbaycan Respublikasında baytarlıq işinin təşkilini;<br>- Baytarlıq sahəsi üzrə qanunvericiliyi;<br>- Baytarlıq sahəsi üzrə beynəlxalq əməkdaşlığın xüsusiyyətlərini;<br>- Baytarlıq üzrə xüsusi sənədlərin rəsmiləşdirilməsi qaydalarını;<br>- Baytarlıq tədbirlərinin planlaşdırılmasını və təşkilini;<br>- Normativ-hüquqi aktlarla müəyyən edilmiş müvafiq uçot və hesabat sənədlərinin tərtib edilməsini;<br>- Normativ-hüquqi aktların tələblərinə uyğun epizootiya əleyhinə və baytarlıq-sanitariya qaydalarını. |

| | | | |
|---|---|---|---|
| | - Normativ – hüquqi sənədlərin tələblərinə uyğun olaraq baytarlıq sahəsində maddi-texniki təçhizat qaydalarını;<br>- Aqrosənaye komplekslərində baytarlıq xidmətinin təşkili üzrə normativ-hüquqi aktların tələblərini;<br>- Bazar iqtisadiyyatı şəraitində baytarlıq xidmətinin vəzifələrini.<br>**Bu kursu bitirmiş tələbə bacaracaqlar:**<br>- Baytarlıq bölmələrinin (idarə, sektor, şöbə, ekspeditsiya, dəstə, qrup, laboratoriya və s) perespektiv və cari iş planlarının tərtib edilməsi;<br>- Planlaşdırılan və həyata keçirilən baytarlıq tədbirlərinin iqtisadi cəhətdən səmərəliliyini müəyyən etmək;<br>- Xəstlliklərin profilaktikası və müalicəsi üzrə tədbirlərin səmərəliliyini təhlil edilməsi və əldə edilən nəticələrin onların təkmilləşdirilməsi üçün istifadə olunması;<br>- Epizootiya əleyhinə və müalicə tədbirlərinin, həmçinin heyvanların klinik müayinəsi və dispanserizasiyasının təşkili və həyata keçirilməsi<br>- Müəyyən şəraitlərdə baytarlıq sahəsi üzrə yuxarı qurumlar tərəfindən verilən konkret tapşırıqların yerinə yetirilməsi üçün optimal vaxtda səfərbər olması;<br>- Baytar mütəxəssislərinin seminarlarının və müşavirələrinin təşkili və həyata keçirilməsi;<br>- Əhali və heyvandarlıq işçiləri arasında baytarlıq-maarifçilik işinin təşkili və həyata keçirilməsi.<br>- Müxtəlif qurumların (dövlət və özəl sektor) baytar mütəxəssislərinin qarşılıqlı fəaliyyətinin təşkili edilməsi. | | |
| **Tədris metodları** | **Mühazirə** | **x** | |
| | **Qrup müzakirəsi** | **x** | |
| | **Seminar** | **x** | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Aralıq imtahanı** | | **30** |
| | **Fəallıq** | | **5** |
| | **Davamiyyət** | | **5** |
| | **Tapşırıq və testlər (quiz1,2)** | | **10** |
| | **Kurs işi (Layihə1,2,3)** | | **10** |
| | **Final imtahanı** | | **40** |
| | **Yekun** | | **100** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Davamiyyət**<br>Dərslərə davamlı gəlmək çox vacibdir. Mühazirələr və dərslərdə iştirak sizin bilik və bacarıqlarınızı genişləndirir. Buraxılmış dərslərə görə və yerinə yetirmədiyiniz tapşırıqlar üçün siz məsuliyyət daşıyırsınız.<br>**Sinif qaydaları və ya ümumi qaydalar:**<br>- Hər dəfə sinfə vaxtında gəlmək;<br>- Müəllimdən 10 dəqiqə sonra sinfə gələnlərə qaib yazılır;<br>- Bütün tapşırıqları vaxtında təhvil vermək;<br>- Tapşırıqlarda plagiarizmdən istifadə etmək yolverilməzdir;<br>- Dərs kitablarından mütləq istifadə etmək! Əlavə mənbələr: internet materialları və əlavə kitablardan istifadə qiymətləndirilir;<br>- Qrup yoldaşlarınıza və müzakirələr zamanı onların fikirlərinə hörmətlə yanaşmaq;<br>- Sinifdə mobil telefondan istifadə etmək olmaz;<br>- Müəllimin sinifdə verdiyi tapşırıq və göstərişlər bütün tələbələr tərəfindən yerinə yetirilməlidir; | | |

| | |
|---|---|
| | - Qrup işlərində bütün tələbələrin aktiv iştirakı vacibdir;<br>- Hər bir tələbəyə semestr ərzində könüllü olaraq dərsin müəyyən hissəsində müəllim kimi özünü sınamağa icazə verilir;<br>- Müəllimlə email vasitəsilə, yaxud iş saatlarında ofisdə (1-5-ci günlər səhər saat 9-dan axşam saat 6-ya qədər, 13:00-14:00 nahar vaxtı çıxılmaqla) əlaqə saxlamaq (axşam saat 9-dan sonra və bazar günlərində yazılan emaillara cavab verilmir);<br>- Müəllimə Whatsapp mesajları və SMS-lər yazmamaq.<br>**Kursa verilən tələblər:**<br>1. Dərs kitablarını və əlavə materialları oxumaq;<br>2. Sinifdəki bütün müzakirələrdə, diskussiyalarda və digər intellektual fəaliyyətlərdə aktiv olmaq;<br>3. Tapşırıqları tələb olunan vaxtda və formatda tərtib etmək;<br>4. Xəstəlik və fövqəladə hallardan başqa bütün dərslərdə iştirak etmək.<br>***Bu kurs üçün bir aralıq və bir final imtahanı nəzərdə tutulmuşdur. Bütün imtahan sualları sylabusda yazılan mövzulara əsasən tərtib olunacaqdır.***<br>Hər bir modulun sonunda tələbələrə bu modul daxilində keçirilən mövzularla bağlı **quiz** (test) keçiriləcək və hər biri 5 bal olmaq şərtilə ümumi 10 bal veriləcəkdir.<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>Dərsə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq tələbə dərs saatına buraxıla bilər.<br>Dərsi pozmaq, dərsdən icazə istəmək, qrup işlərinin hazırlanması xaricində cib telefonundan istifadə etmək kimi davranışlar arzu olunmazdır.<br>Tələbələrin hazırladıqları **təqdimatlarda** mənbələrin göstərilməsi vacib şərtdir.<br>Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) balla qiymətləndirilir.<br>Universitet qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il götürə bilər.<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefondan istifadə qadağandır. |

**Mövzular üzrə saatları bölgüsü və təqvim-tematik plan**

| Tarix | Həftə | Mövzular və tədris sualları | Ədəbiyyat |
|---|---|---|---|
| 19.09.24 | I | **Mövzu №1: Baytarlıq qanunvericiliyi**<br>Baytarlıq işinin təşkilinin qısa tarixi. Onun iqtisadi və sosial əhəmiyyəti. Baytarlıq işinin qanunvericilik bazasının əsasları. “Baytarlıq” haqqında Azərbaycan Respublikasının qanunu. | **1,** I fəsil maddə 1-5.<br>**11.** 5-11-ci səh. |
| 26.09.24 | II | **Mövzu №2: Azərbaycan Respublikasının Nazirlər Kabineti və onun tabeçiliyində olan dövlət qurumlarının baytarlığa dair normativ – hüquqi aktları.** | **2 -10**<br>https://nk.gov.az/senedler/qerarlar |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycan Respublikasının Nazirlər Kabinetinin bay-tarlığa dair qərar və sərəncamları. Kənd Təsərrüfatı Nazir-liyi və Qida Təhlükəsizliyi Agentliyinin müvafiq qərarları, təimatları, qaydaları, metodiki göstərişləri və tövsiyələri. | |
| 03.10.24 | III | **Mövzu № 3: Azərbaycan Respublikasında dövlət baytarlıq xidmətinin təşkili.**<br>Dövlət baytarlıq xidmətinin mahiyyəti, hüquq və vəzifələri. Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin baytarlıq qurumlarının *(Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzi, Heyvan Sağlamlığı və Bioloji təhlükəsizlik Şöbəsi)* strukturu və vəzifələri. | **1.** II fəsil, maddə - 6,7,9,10.<br>**11.** maddə 3.0 – 3.9 |
| 10.10.24 | IV | **Mövzu: № 4: Kənd rayonlarında və şəhərlərdə baytarlıq xidmətinin təşkili.**<br>Rayon və şəhər baytarlıq xidmətlərinin strukturu və vəzifələri. DAİM-nin rayon Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri İdarələri, sahə baytarlıq məntəqə-lərində ödənişli baytarlıq xidmətlərinin təşkili. AQTA-nin regional bölmələri. Kənd rayonlarında və şəhərlərdə heyvan xəstəliklərinin laborator diaqnostikasının təşkili. Dövlət orqanlarında *(MN, DSX, DİN-nin Daxili Qoşunları, DGK, FHN, ƏN)* baytarlıq xidmətinin təşkili. | **11.** 68-82- səh.<br>**3,9 -** https://nk.gov.az/ senedler/qerarlar |
| 17.10.24 | V | **Mövzu № 5: Aqrosənaye komplekslərinin müəssisə-lərində baytarlıq xidmətinin təşkili.**<br>Heyvandarlıq müəssisələrində baytarlıq xidməti və onun vəzifələri. Müəssisələrin baytar mütəxəssislərinin vəzifə-ləri və hüquqları. Südçülük komplekslərində, iri qoyunçuluq təsərrüfatlarında, quşçuluq fabriklərində, atçılıq mərkəz-lərində (klublarında) və xidməti it saxlanma (yetişdirmə) məntəqələrində baytarlıq xidmətinin təşkili. | **11.** 90-98- ci səh.<br>**2,7,8** - https://nk.gov.az/ senedler/qerarlar |
| 24.10.24 | VI | **Mövzu № 6: Beynəlxalq baytarlıq təşkilatları və xarici ölkələrdə baytarlıq xidmətinin təşkili.**<br>Ümumdünya Baytarlıq Assosasiyası (WVA), Ümumdünya Heyvanların Sağlamlığı Təşkilatı (WOAH-OIE), Ümumdünya Heyvanların Mühafizəsi Cəmiyyətinin (WAP) strukturu və vəzifələri. Ümumdünya Heyvanların Sağlamlığı Təşkilatının konqressləri, qurultayları, sim-poziumları və konfransları. BMT-nim Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Heyvandarlıq və Baytarlıq məsələri üzrə şöbəsinin vəzifələri. Respublikanın müvafiq qurumlarının (KTN, AQTA) beynəlxalq baytarlıq təşkilatları ilə əlaqələri. Xarici ölkələrdə baytarlıq xidmətinin təşkili. | **1,** IX fəsil, 42-43-cü maddə<br>**11,** 201- 208 - ci səh. |
| | | **QUİZ 1** | |

| | | | |
|---|---|---|---|
| 31.10.24 | VII | **Mövzu №7: Baytarlıq nəzarətinin təşkili.** Baytarlıq nəzarətinin mahiyyəti, obyektləri və metodları. Heyvandarlıq təsərrüfatlarına baytarlıq-sanitariya nəzarəti. Heyvanların saxlanmasına, yemlənməsinə və alınmasına, heyvandarlıq məhsullarının və xammalın istehsalına, tədarükünə, saxlanmasına və emalına baytarlıq nəzarəti. Yemlərin keyfiyyətinə və onların tədarükünə baytarlıq nəzarəti. Heyvandarlıq məhsullarının, xammalın və heyvanların daşınmasına baytarlıq nəzarəti. | **1.** III fəsil, maddə 11-18<br>**2,7,8** - https://nk.gov.az/senedler/qerarlar |
| | | **ARALIQ İMTAHANI** | |
| 07.11.24 | VIII | **Mövzu № 8. Baytarlıq sahibkarlığı. Özəl baytarlıq xidmətinin təşkili.** Baytarlıq biznesi sahəsində qiymətlərin formalaşmasının əhəmiyyəti və ona təsir göstərən faktorlar. Baytarlıq biznesu sahəsində marketinqin əhəmiyyəti. Baytarlıq biznesində bazar strukturu. Baytarlıq məhsullarının və servislərinin öyrənilməsi və onların realizasiya formaları. Baytarlıq biznesinin reklamı. Özəl baytarlıq xidməti fəaliyyətlərinin lisenziyalaşdırılması. Özəl baytarlıq klinikaları və aptekləri. | **1.** V fəsil, maddə 27-30 |
| 14.11.24 | IX | **Mövzu № 9. Baytarlıq tədbirlərinin planlaşdırılması və təşkili.** Baytarlıq tədbirlərinin elmi cəhətdən əsaslandırılmış və heyvandarlığın baytarlıq baxımından əlverişli fəaliyyətini təmin edən planlaşdırılması. Baytarlıqda planlaşdırma obyektləri. Baytarlıq tədbirlərinin aparılması üzrə planlara irəli sürülən tələblər. Baytarlıq tədbirlərinin planlaşdırılmasının əsas prinsipləri. Baytarlıq-statistik məlumatlarının planlaşdırılmada əhəmiyyəti. Baytarlıq tədbirlərinin planlaşdırılmasının iqtisadi əsaslandırılması və rasionallığı. | **1.** IV – maddə 20-21.<br>**11.** 129-142- ci səh. |
| 21.11.24 | X | **Mövzu № 10. Epizootiya əleyhinə tədbirlərin planlaş-dırılması və təşkili** Yoluxucu xəstəliklərə qarşı ümumi profilaktiki tədbirlərin təşkili. Yoluxucu xəstəliklərə qarşı xüsusi (spesifik) profi-laktiki tədbirlərin planlaşdırılması və təşkili. Yoluxucu xəstəliklərin ləğvinə yönəldilən baytarlıq tədbirlərinin plan-laşdırılması və təşkili. Baytarlıq-sanitariya tədbirlərinin planlaşdırılması və təşkili. | **1.** IV – maddə 22.<br>**3,7** https://nk.gov.az/ sened-ler/qerarlar<br>**11.** 144-151- ci səh.<br>. |
| 28.11.24 | XI | **Mövzu № 11. Parazitar və yoluxmayan xəstəliklərə qarşı baytarlıq tədbirlərinin planlaşdırılması və təş-kili.** Parazitar (invazion) xəstəliklərə qarşı ümumi profilaktiki tədbirlərin planlaşdırılması və təşkili. Parazitar (invazion) xəstəliklərə qarşı xüsusi profilaktiki tədbirlərin planlaş-dırılması və təşkili. Yoluxmayan xəstəliklərə qarşı profilaktiki tədbirlərin planlaşdırılması və təşkili. Baytarlıq müalicə işinin təşkili. | **11.** 152-157- ci səh. |

| | | | |
|---|---|---|---|
| 05.12.24 | XII | **Mövzu № 12: Baytarlıq tədbirlərinin iqtisadiyyatı.** Baytarlıq tədbirlərinin maliyyələşdirilməsi. Rayon (şəhər) Heyvan sağlamlığı və Baytarlıq Xidməti İdarəsinin xərclər smetasının tərtib olunması metodikası. Baytarlıq tədbirlərinin iqtisadi səmərəliliyi və onun təyini metodikası. Baytar mütəxəssislərinə əmək haqqı ödənişi qaydaları. | **1.** VII fəsil, maddə 39.<br><br>**5,6** - https://nk.gov.az/ sened-ler/qerarlar |
| 12.12.24 | XIII | **Mövzu № 13: Heyvan xəstəlikləri hesabına kənd təsərrüfat müəssisələrinə dəyən iqtisadi zərər və onun hesablanması metodikası.**<br>İqtisadi zərərin növləri. Heyvanların tələf olmasından, məcburi məhv edilməsindən və məcburi kəsimindən təsərrüfatlara dəyən itisadi zərər. Heyvanların məhsuldarlığının və damazlıq keyfiy-yətinin azalması hesabına təsərrüfatlara dəyən iqtisadi zərər. Heyvandarlıq məhsullarının keyfiyyətinin azalması hesabına dəyən iqtisadi zərər. Xəstəliyin profilaktikası və ləğvi nəticəsində qarşısı alınan iqtisadi zərər. İqtisadi zərərin hesablanması qaydaları. | **5,** https://nk.gov.az/ sened-ler/qerarlar<br><br>**11.** 303-314- cü səh. |
| 17.12.24 | XIV | **Mövzu № 14: Baytarlıq təchizatının təşkili və baytarlıq obyektlərinin tikintisi.**<br>Baytarlıq tədbirlərinin maddi-texniki təminatı. Baytarlıq təchizatının obyektləri və qaydaları. Baytarlıq təchizatı üzrə tələbnamələrin tərtib olunması. Baytarlıq təşkilatlarının (müəssisələrinin) təchizat (təminat) normaları. Baytarlıq təşkilatlarında (müəssisələrində) əmlakın, inventarların medikamentlərin və dezinfeksiyaedici vasitələrin uçotu, saxlanması və sərfiyyatı. Baytar mütəxəssislərin maddi məsuliyyəti. Baytarlıq obyektlərinin tikintisi və onun əhəmiyyəti. Tikinti işlərinin keyfiyyətinə nəzarət. Tikintisi başa çatmış baytarlıq obyektlərinin istismara buraxılması. | **1.** IV fəsil , maddə 33,35.<br>**8,** https://nk.gov.az/ sened-ler/qerarlar |
| | | **QUİZ 2** | |
| 17.12.24 | XV | **Mövzu № 15: Baytarlıqda uçot, hesabat və kargüzar-lığın aparılması.**<br>Kənd təsərrüfatı müəssisələrində (heyvandarlıq ferma-larında və komplekslərində) baytarlıq tədbirlərinin uçotu. Baytarlıq təşkilatlarında (müəssisələrində) uçot formaları. İlkin baytarlıq uçotu sənədlərinin aparılması qaydaları. Xəstə heyvanların qeydiyyatı. Xəstəlik tarixi. Heyvanların idendifikasiyası. Kənd təsərrüfatı müəssisələrinin səmərəli fəaliyyətində və idarə edilməsində baytarlıq hesabatlarının əhəmiyyəti. Baytarlıq hesabatlarının formalar. Baytarlıq müşayiət sənədləri və onların verilməsi qaydaları. | **6,** https://nk.gov.az/ sened-ler/qerarlar |
| | | **FİNAL İMTAHANI** | |

***Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.***